2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində
Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş
26 noyabr 2014-cü il tarixli 13 saylı müraciətə baxılması barədə
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 28 saylı Sabunçu üçüncü seçki dairəsindən Maştağa bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qasımova Səyyarə Hüseyn qızı 2014-cü il noyabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyası qərarının əsassız olmasını bildirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa edilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq komissiyanın iclasında baxılmışdır.

Ərizəçi 28 noyabr 2014-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək şikayətindən imtina etmiş, müraciətin araşdırılmasına xitam verilməsini xahiş etmişdir.

Yuxarıda göstərilənlər əsas götürülərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 28.4-cü maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 28 saylı Sabunçu üçüncü seçki dairəsindən Maştağa bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qasımova Səyyarə Hüseyn qızı şikayətindən imtina etdiyinə görə 26 noyabr 2014-cü il tarixli 13 saylı müraciətin araşdırılmasına xitam verilsin.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

| | |
|---|---|
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |